# Ölkə mediasında ciddi keyfiyyət dəyişikliyi gedir

***Təməli böyük millət fədaisi Həsən bəy Zərdabinin min bir zəhmət hesabına ərsəyə gətirdiyi “Əkinçi” qəzeti ilə qoyulan Azərbaycan mətbuatı uzun, maraqlı və zəngin inkişaf yolu keçərək, tarixən xalqımızın ictimai-siyasi, mədəni həyatında mütərəqqi rol oynayıbdır. Məhz milli mətbuatımızın zəngin ənənə və dəyərlərindən qaynaqlanan çağdaş mediamız bu gün ölkəmizin hərtərəfli tərəqqi və intibahına öz töhfələrini verir.***




Ötən əsrin sonlarında xalqımız yenidən öz istiqlalına qovuşanda, ölkəmizdə söz, fikir, media azadlığı üçün geniş üfüqlər açıldı. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilmiş Konstitusiyamızın 47-ci maddəsində hər kəsin fikir və söz azadlığı, 50-ci maddəsində məlumat almaq azadlığı təsbit olundu. Hər kəs istədiyi fikri ifadə etmək azadlığı ilə bərabər, lazımi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq hüququ qazandı.

Təqdirəlayiq haldır ki, gənc, müstəqil Azərbaycan dövləti beynəlxalq birliyin üzvü olaraq, söz və düşüncə azdlıqlarını təqdir edən bütün mühüm sənədləri imzalayıb və onların uğurla icrasına nail oldular. Ölkəmiz “Ümumdünya İnsan Hüquqları üzə Bəyannamə”ni və “İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasını və başqa mühüm hüquqi-normativ sənədləri təsdiq edibdir.

Azərbaycanda 1996-cı ildə “Mətbuat azadlığı haqqında”, 2003-cü ildə “İnformasiya azadlığı haqqında”, nəhayət, 2021-ci ildə “Media haqqında” milli mətbuatın və çağdaş medianın qanunvericilik bazasının əsasını qoyan və onun inkişafının təmin edən mühüm qanunlar qəbul edilibdir. Bu tarixi sənədlər dövlət orqanları, eləcə də özəl, fiziki və hüquqi şəxslər qarşısında azad medianın cəmiyyətdəki rolunu və əhəmiyyətini təsdiq və təşviq edən konkret mexanizmlər və vəzifələr müəyyən edibdir.

Fəxrlə qeyd etmək lazımdır ki, ölkəmizdə müasir çağırışlara cavab verən mətbuatın formalaşması və inkişafı birbaşa ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər özünün bütün parlaq siyasi fəaliyyəti dönəmlərində mətbuatın inkişafına bir an azalmayan diqqət və qayğı ilə yanaşıbdır. Görkəmli dövlət xadiminin təşəbbüsü ilə dövlət senzurasının ləğv olunması, qəzet kağızının əlavə dəyər vergisindən azad edilməsi, qəzet redaksiyalarının Azərbaycan nəşriyyatına yığılıb qalmış borclarının silinməsi və sair bu kimi vacib addımlar ölkəmizdə azad mətbuatın formalaşmasına münbit şərait yaradıbdır.

Maraqlı cəhət budur ki, ölkəmizdə azad medianın formalaşdırılması prosesi ilə milli dövlət quruculuğu prosesi üst-üstü düşüb. Xalqımızın bəxti onda gətirib ki, həmin dövrdə ölkəmizə Heydər Əliyev kimi dahi siyasətçi rəhbərlik edib. Yaxşı ki, ulu öndərin milli dövlət quruculuğunda azad mətbuatın inkişafı ilə bağlı siyasəti son iyirmi ildə möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyi ilə yeni dövrün reallıqlarına uyğun olaraq yaradıcı və praqmatik şəkildə davam etdirilir.

2020-ci ilin payızında 44 günlük şanlı Vətən müharibəsi dövründə və sonrakı günlərdə Prezident İlham Əliyev dünyanın otuzdan çox nüfuzlu media orqanına müsahibələr vermişdir. Dünya tarixində qısa zaman kəsiyində qlobal mediaya bu qədər parlaq müsahibələr, açıqlamalar və bəyanatlar verən ikinci dövlət başçısı tapmaq çətindir və bəlkə də qeyri-mümkündür.

Dünyanın ən nüfuzlu media mənsublarının gəldiyi qənaət budur ki, Azərbaycan Prezidenti dünya syasətinin ən güclü, müstəqil və xarizmatik siyasətçilərindəndir. Prezident İlham Əliyev doğma ana dilindən başqa rus, ingilis və fransız dillərini əla bilir, yerli və xarici media təmsilçiləri ilə görüşlərdə yüksək intellekti, məlumatlılığı, kübarlığı ilə hamını heyran qoyur. Bəli, Azərbaycan Prezidentinin mətbuatla ünsiyyət mədəniyyəti bu gün ölkəmizə, dövlətimizə və mediamıza, həqiqətən, şəraf gətirir.

Azərbaycan liderinin əsas məqsədlərindən biri də Azərbaycan mediasının ən yüksək dünya standartları səviyyəsinə yüksəlməsinə nail olmaqdır. Qalib ölkənin mediası obyektiv, yüksək peşəkar və qürurlu olmalıdır” Azərbaycannın çox sayda media mənsubları dünya səviyyəsində yüksək peşəkarlıq və vətənpərvərlik nümunəsi göstərməli, Azərbaycan həqiqətlərini bütün dünya ictimaiyyətinə çatdırmağı bacarmalıdırlar.

Bu istiqamətdə ölkəmizdə ötən ilin əvvəlindən başlayaraq, real və praqmatik işlər görülür. Prezident İlham Əliyev 2021-ci il yanvarın 12-də “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” fərman imzalayıb. Sənədin əsas məqsədi ölkədə azad mətbuatın inkişafını ən yüksək dünya standartları səviyyəsində təmin etməkdir. Bəli, tam qətiyyətlə demək olar ki, ölkəmizdə Media İnkişafı Agentliyinin yaradılması cəmiyyətin sosial sifarişidir. Görünən budur ki, yeni qurumun rəhbərliyi dövlətin və ictimaiyyətin onun qarşısında qoyduğu vəzifələrin öhdəsindən gəlmək üçün bütün qüvvə və bacarığını səfərbər edir.

Gəlin, media islahatları sahəsində müsbət dinamikaya qısa nəzər salaq. Birinci ondan başlayaq ki, Azərbaycanda kifayət qədər qısa zaman ərzində “Media haqqında” Qanun hazırlanaraq qəbul edilib, jurnalistlərə sosial ipotekadan yararlanmaq imkanı verilib, qəzet kağızı ƏDV-dən azad olunub. Bunlar media sahəsində aparılan islahatların ilk və uğurlu dəyişikliklərin təzahürüdür. Qarşıda isə daha böyük işlər və vəzifələr durur.

Bu məqamda Vətən müharibəsi günlərində Azərbaycan mediasının çox sayda təmsilçilərinin fədakar fəaliyyətini qiymətləndirmək yerinə düşər. Həqiqətən, həmin taleyüklü günlərdə ölkə mediası təmsilçiləri ölkəmizə qarşı yönəlmiş informasiya təxribatlarının qarşısının alınması üçün əlindən gələni edirdilər. Jurnalistlərimiz xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmağa çalışırdı və buna nail olmağı bacarırdı. Qardaş Türkiyədən olan həmkarlarımız bizimlə birlikdə idilər.

Yenə də MEDİA Agentliyinin fəaliyyəti mövzusuna qayıtmaq istəyirəm. Qurum ölkədə peşəkar medianın fəaliyyətinin stimullaşdırılması üçün məqsədyönlü işlər görür. Agentlik tərəfindən dünyanın qabaqcıl media təşkilatlarının və xarici ekspertlərin iştirakı ilə jurnalistlər üçün silsilə təlim və seminarlar təşkil edilir. Təkcə 2021-ci il ərzində həyata keçirilən təlimlərə, seminarlara və digər layihələrə 60-dan çox təlimçi və 350-dən çox media nümayəndəsi cəlb edilib.

Sirr deyil ki, bu gün bütün dünyada, eləcə də ölkəmizdə jurnalistlərin ən böyük problemlərindən biri informasiyanın əlçatanlığıdır. MEDİA Agentliyi bu istiqamətdə müəyyən uğurlara nail olubdur. Belə ki, ölkə jurnalistlərin dövlət qurumları ilə qarşılıqlı kommunikasiyannı gücləndirilməsi, əməkdaşlığının optimallaşdırılması və informasiya mübadiləsinin daha effektiv təşkili məqsədilə dövlət orqanlarının mətbuat katibləri, media qurumlarının rəhbərləri və jurnalistlər üçün seminar və təlimlərin keçirilib ki, bütün bunlar bu sahədə vəziyyəti köklü surətdə yaxşılaşdırıb.

Jurnalistlərin ixtisaslaşması və sahəvi jurnalistikanın inkişaf etdirilməsi məqsədilə MEDİA Agentliyi bir sıra dövlət qurumları və təşkilatlarla əməkdaşlıq edir. Məsələn, son iki il ərzində XİN, MN, BMTM, Baş Prokurorluq, İqtisadiyyat Nazirliyi, Dövlət Gömrük Komitəsi, Azərsu ASC, İqtisadi İslahatların Təhlili Mərkəzi, TƏBİB və digər qurumlarla birgə jurnalistlər üçün təlimlər təşkil olunub.

Ali təhsil müəssisələrində media mərkəzlərinin yaradılması və inkişaf prosesi sürətlənir. Təqdirəlayiq haldır ki, təhsil prosesində ənənəvi medianın rəqəmsal mediaya inteqrasiyası baş verir. MEDİA Agentliyi yeni texnologiyaların inkiafı ilə bağlı yaranan bu prosesi dəstəkləyir. Bu məqsədlə Bakı Dövlət Universiteti və Bakı Slavyan Universitetində 150-dən çox tələbənin iştirakı ilə görüş və mühazirələr təşkil edilib.

Bütün peşə sahibləri öz sənətlərində mükəmməlliyə can atmalıdır. Həyat bunu hər kəsdən tələb edir. Jurnalist peşəsinin özəlliyi isə ondadır ki. bu sahədə çalışanlar daim öyrənməyə, öz peşəkarlıq qabiliyyətlərini yüksəltməyə borcludurlar. MEDİA Agentliyi tərəfindən istedadlı jurnalistlərin mükafatlandırılması və peşəkarlığının artırılması məqsədilə il ərzində iki dəfə fərdi jurnalist müsabiqəsinin keçirilir. Müsabiqələrin obyektiv keçirildiyi qələm əhli tərəfindən etiraf olunur.

Sual oluna bilər: MEDİA Agentliyinin yaranması ilə cəmiyyətin informasiya təminatında hansı dəyişikliklər baş verib? Müsbət, pozitiv dəyişikliklər həqiqətən çoxdur. Görünən budur ki, cəmiyyətin informasiya təminatında operativlik və keyfiyyət yüksəlib, media və sosial şəbəkələrdə qaldırılan məsələlərə dövlət orqanları tərəfindən dərhal reaksiya verilir. Başqa bir müsbət cəhət isə budur ki, son dövrdə dövlətin həyata keçirdiyi siyasətin, qəbul olunmuş qərarların mahiyyətinin ictimaiyyətə çatdırılması və izah olunması işinin keyfiyyəti və çevikliyi kəskin dərəcədə yüksəlib.

Azərbaycan jurnalistləri cəmiyyətin intellektual kəsimidir. Ölkə mediası beynəlxalq informasiya məkanında mövcud olan tendensiya və trendləri yaxından izləyir, qabaqcıl nümunələrin tətbiqi işində artıq nəzərəçarpacaq irəliləyiş müşahidə edilir. Media gündəm mövzuları işıqlandırır, müzakirəyə çıxarır. Konstruktiv, qərəzsiz və obyektiv tənqid medianın ictimai nəzarət potensialının yüksəlməsinə şərait yaradıb. Media fəaliyyəti sahəsində mövcud olmuş neqativ hallar aradan qaldırılır, şəffaflıq təmin olunur, “reket jurnalistikanın” əhatə dairəsi daralır.

Saytların bir çoxunun texniki problemləri aradan qaldırılıb, bəziləri tamam yeni tərtibata keçib, bəzi saytlar yeni rubrikalar yaradıblar və ən əsası 20 özəl material tələbini yerinə yetirmək artıq gündəlik işin adi normasına çevrilib. “Copy-paste” hallarının əsaslı şəkildə azaldığı müşayiət edilir.

Bu yerdə məxsusi vurğulamaq lazımdır ki, Azərbaycan dilinin ədəbi üslubunun tələblərinə ciddi əməl edilməsi diqqət mərkəzindədir. Dövlət yazılı medianın timsalında Azərbaycan dilinin inkişafına, ənənəvi publisistik düşüncənin yaşamasına və eyni zamanda cəmiyyətdə plüralizmin möhkəmlənərək sərhədlərinin genişlənməsinə dəstək göstərir.

MEDİA Agentliyi tərəfindən görülən bütün müsbət dəyişiklikləri bir-bir sadalamaq çətindir və buna bəlkə də ehtiyac yoxdur. Fakt budur ki, yeni qurum rəhbərliyi öz öhdəsinə düşən mühüm və şərəfli missiyanı böyük məsuliyyət hissi və ləyaqətlə yerinə yetirməyə çalışır.

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***